**27.04.2023: xəbər**

**Khazar University students in Erasmus+ student exchange program**
**Rich experience in professional career path**

Currently, I am studying Clinical Psychology at the master's degree at Khazar University. I began researching study abroad programs in order to delve into cultural differences in psychology and explore this topic in my dissertation. That's how I got acquainted with the Erasmus+ exchange program.

The program, which provides an opportunity for one or two semesters of study in a foreign country, brings together students from many countries of the world and not only gives them new knowledge in terms of education, but also creates conditions for young people to get acquainted with different cultures. The scholarship allocated for students also makes it possible.

As a one semester student at Sabanci University in Türkiye, I can say that you feel that every opportunity there is just for you, because you are the center of attention! In addition to the classes I attended for 5 months, I did an internship in the Psychology laboratory, my teacher encouraged me to write a project for TUBITAK and I prepared it.

I conducted research in order to investigate the relationship between academic performance (GPA), anxiety level and life satisfaction in university students of Azerbaijan and Türkiye, I assisted in conducting research with electroencephalography machine in the Psychology Laboratory. Through excursions, I traveled to different regions of Türkiye and made many friends from different countries.

**Ilaha Mammadova**

**“Xəzər”in tələbələri Erasmus+ tələbə mübadilə proqramında**

**Professional karyera yolunda zəngin təcrübə**

Hal-hazırda Xəzər Universitetində magistr pilləsində Klinik psixologiya ixtisası üzrə təhsil alıram. Psixikadakı mədəni müxtəliflikləri incələmək, dissertasiyamda bu mövzunu araşdırmaq məqsədilə xaricdə təhsil proqramlarını araşdırmağa başladım. Beləliklə də, Erasmus+ mübadilə proqramı ilə tanış oldum.

Xarici bir ölkədə bir və ya iki semestrlik təhsil imkanı yaradan proqram dünyanın bir çox ölkəsindən olan tələbələri bir yerə toplayaraq, onlara yalnız təhsil baxımından yeni biliklər verməklə qalmır, eyni zamanda, gənclərə müxtəlif mədəniyyətlərlə tanış olmaları üçün şərait yaradır. Tələbələr üçün ayrılan təqaüd də buna imkan verir.

Türkiyənin Sabancı Universitetində bir semestrlik tələbə kimi deyə bilərəm ki, orada hər imkanın məhz sənin üçün olduğunu hiss edirsən, çünki mərkəzdə sənsən! 5 ay müddətində aldığım dərslərdən əlavə, Psixologiya laboratoriyasında təcrübə keçdim, müəllimim TUBİTAK-a layihə yazmağımı təşviq etdi və mən hazırladım.

Azərbaycan və Türkiyə universitet tələbələrində akademik göstərici (GPA), təşviş səviyyəsi və yaşam məmnuniyyəti arasındakı əlaqənin incələnməsi məqsədilə tədqiqat apardım, Psixologiya laboratoriyasında elektroensefaloqrafiya aparatı ilə tədqiqatların keçirilməsinə yardımçı oldum. Ekskursiyalar vasitəsilə Türkiyənin müxtəlif bölgələrini gəzdim, müxtəlif ölkələrdən bir çox dostlar qazandım.

**İlahə Məmmədova**






KALSEDON



